# Ən böyük günahlar: Allaha şərik qoşmaq, validəyinlərin üzünə ağ olmaq, adam öldürmək və yalandan (Allaha) and içməkdir

Abdullah bin Amr bin As (Allah ondan və atasından razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Ən böyük günahlar: Allaha şərik qoşmaq, validəyinlərin üzünə ağ olmaq, adam öldürmək və yalandan (Allaha) and içməkdir".
[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) böyük günahları bəyan etmişdir. bunlar da, bu günahları edən kimsələri dünyada və axirətdə şiddətli bir əzabla təhdid edilən günahlardır. Bunların birincisi: Allaha şərik qoşmaqdır. Bu, hər hansı bir ibadət növünü Allahdan başqasına sərf etməkdir. Həmçinin, Uca Allahdan başqasını, Allaha aid olan uluhiyyət, rububiyyət, ad və sifətlərlə bağlı xüsuslarda Allahla bərabər tutmaqdır. İkincisi: Validəyinlərin üzünə ağ olmaq. Bura, söz və əməl olmasından aslı olmayaraq, ata anaya qarşı edilən bütün növ əziyyətlər və həmçinin onlara yaxşılıq etməyi tərk etmək də daxildir. Üçüncüsü: Haqsız yerə adam öldürməkdir. Zülüm və düşmənçilik edərək adam öldürmək da bura daxildir. Dördüncüsü: Yalan söylədiyini bildiyi halda, yalandan (Allaha) and içməkdir. Andın bu növü, sahibini Cəhənnəmə saldığı yaxud günaha batırdığı üçün ərəb dilində "əl-Yəminul-Ğamus" olaraq adlandırılmışdır.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee